# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Azərbaycanda ən həssas qruplara daxil olan uşaqlar üçün icma və ailə əsaslı inteqrasiya olunmuş sosial xidmətlərin yaradılması**




**İcra müddəti:** 01.02.2019 - 31.07.2022

**ŞT ölkələri:**
Azerbaijan

**Aİ-nin maliyyə yardımı:** € 2 896 681

**Ümumi büdcə:** € 3 218 534

**İcraçı təşkilat(lar):**
UNITED NATIONS CHILDREN'S FUND

**Sosial media hesablarına keçidlər:**

**Internet səhifəsi:**

**Layihənin təsviri:**

Layihənin məqsədi seçilmiş rayonlarda uşaqlar üçün kompleks Erkən Uşaq Dövrü İnkişafı (EUDİ), icma əsaslı sosial xidmətlər və gənclər üçün xidmətlər kimi üç nəticəyə nail olmaqla daha həssas, risklərə məruz qalan və zəruri xidmətlərdən istifadə edə bilməyən uşaqların və gənclərin keyfiyyətli xidmətlərə, dəstəyə və imkanlara çıxış əldə edə biləcəyi bir mühitin yaradılmasıdır. Bütün layihə fəaliyyətləri yerli QHT-lər/VCT-lər, rayon hakimiyyət orqanları və seçilmiş rayonların icmaları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilir.
Layihənin uğuru uşaqların inkişafı və sosial müdafiə sahəsində ardıcıl xidmət keyfiyyətini və çoxsektorlu yanaşmaları gücləndirməklə yanaşı, bütün ölkə üzrə ən həssas uşaqlara ən geniş xidmət spektrinin və yüksəktəsirli tədbirlərin həyata keçirilməsində dövlət və özəl qurumlarla birgə işləyən QHT-ləri/VCT-ləri dəyərli və etibarlı "üçüncü sektor" kimi bərqərar edəcəkdir.

**Gözlənilən nəticələr:**

- Ümumilikdə 60 000 azyaşlı uşaq və onların valideynləri səhiyyə, qidalanma, uşaqların müdafiəsi və valideynlilik proqramları da daxil olmaqla EUDİ məsələləri üzrə konsultasiyalardan faydalanacaqlar (Abşeron, Gəncə, Şirvan, Ağcabədi); Məktəbəqədər yaş qrupunda olan 400-dək uşaq səhnəciklər, oyunlar və əlilliyi olan uşaqlar da daxil olmaqla digər uşaqlarla təmas vasitəsilə erkən təhsildən və məktəbəqədər dəstəkdən faydalanacaqlar (Abşeron, Gəncə, Şirvan, Ağcabədi);
- Həssaslığın qiymətləndirilməsi məqsədilə 4000-dək uşağın sosial işçilər tərəfindən əhatə olunacağı gözlənilir. Əlilliyi olan 200 uşağa isə onların inteqrasiyasına və inkişafına dəstək üçün konkret sosial xidmətlər göstəriləcəkdir (Gəncə, Şirvan, Ağcabədi);
- 3000-dək yeniyetmə və gənc gənclər üçün əlverişli xidmətlərə çıxışdan faydalanacaqdır, habelə təlim, idman, incəsənət tədbirlərində iştirak edəcəkdir (Bakının Binəqədi və Xəzər rayonları, Mingəçevir, Şəmkir, Qazax, Biləsuvar, Tərtər, Goranboy və Bərdə).